# Taxıl biçini başa çatdı: 71 min ton Qəbələ taxılı istehsal olundu

Rayonumuzun taxılçıları iqtisadiyyatımızın mühüm sahəsi sayılan taxıl istehsalını ilbəil artırır. Aqrotexniki qaydalara düzgün riayət edilməsinin nəticəsində bu il də taxıl istehsalının artırılmasına nail olmuşdur.

2015-ci ilin payızında qəbələlilər 22 min hektardan çox sahədə taxıl əkmişdi. Əkin sahələrinə yüksək səviyyədə qulluq göstərdiklərinə görə onlar zəmilərdə bol məhsul yetişdirmişlər. Fermerlər və torpaq sahibkarları iyun ayının ikinci ongünlüyündə taxıl biçininə başlamış və yığım kampaniyasını vaxtından əvvəl başa çatdırmışlar. Taxıl biçinində həm fiziki şəxslərə, həm də «Aqroservis»in Qəbələ filialına məxsus olan xeyli sayda kombayn və kifayət qədər digər texnika saz viziyyətdə iştirak edib və hər hektarın məhsuldarlığı orta hesabla 31,6 sentnerə çatdırılıb. Həmin göstərici ötən ilin müvafiq dövründəkindən 1 sentner çoxdur. Bu il rayon üzrə cəmi 71.081 ton Qəbələ taxılı istehsal olunub ki, bu da 3 min ton ötən ildəkindən çoxdur.

Taxıl istehsalında «Cilan» MMC-nin aqrar sektorunun, «Həsrət» fermer təsərrüfatının kollektivləri, fiziki şəxslərdən Məmməd Usubov, Fikrət Məmmədov, Bayramkoxalı, Kürd, Əmirvan, Zalam, Ziring, Hacıalılı kəndlərinin, Nic qəsəbəsinin taxılçıları xüsusilə fərqlənmişlər.

Taxıl yığımı dövründa zəmilərdə təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetirilmiş, taxıl sahələrinin yanğınla üzləşməməsi üçün rayonun əlaqədar təşkilatları sahələri nəzarətdə saxlamışlar. Yanacaq məsələləri də rayonda lazımi qaydada həll olunub.

İndi fermerlər və torpaq sahibkarları gələn ilin bol məhsulunun bünövrəsini etibarlı şəkildə qoymaq üçün payızlıq dənli bitkilərin əkininə hazırlaşırlar. Belə ki, nasaz şum traktorlarının, səpin aqreqatlarının təmirinə və səpin üçün toxum təmizlənməsinə başlanılmışdır.

**Ramil Qəribov,**
**rayon icra hakimiyyətinin sosial-iqtisadi islahatın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini.**

# 5 avqust—Hərbi Donanma Günüdür

Məlum olduğu kimi Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın hərbi-dəniz donanması da yarandı. 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. Bu gəmilərin əsasında Azərbaycan Xəzər Hərbi-Dəniz Donanması təşkil olundu. Azərbaycan hökumətinin bu tədbiri ölkənin dəniz sərhədlərinin qorunmasında mühüm addım oldü. Eyni zamanda Azərbaycan hökumətinin Hərbi Nazirliyi hərbi donanmanın maddi-texniki bazasının gücləndirilməsinə də xüsusi diqqət artırmışdır. 1919-cu ilin sonlarında general İbrahim ağa Usubovun başçılıq etdiyi Azərbaycan Hərbi missiyası donanma üçün xaricdən xeyli sayda hərbi sursat almışdı.

Azərbaycan hökuməti rus donanmasının admiralı, Şimal qütbü ekspedisiyanın iştirakçısı, türk əslli İslamovu milli donanmanın yaradılması işinə kömək göstərmək üçün 1919-cu ilin yayında Azərbaycana dəvət etmişdi. «Astrabad», «Qars» və «Ərdəhan» hərb gəmilərinin komandirliyi azərbaycanlı kapitanlara tapşırıldı. Hərbi donanmanın maddi-texniki bazasının və kadr təminatının gücləndirilməsi planları aprel işğalı nəticəsində həyata keçirilməmiş qaldı. Az sonra bolşeviklərin gəlişi ilə Azərbaycan hərbi donanması ləğv olundu.

SSRİ dağıldıqdan sonra Azərbaycanda hərbi dəniz donanmasının təşkilinə şərait yarandı. 1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri Qərargahı, mühafizə və təminat rotasi yarandı. Xəzər Hərbi-Dəniz Donanmasının 25 faizi və Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasının ixtiyarına verildi. 1992-ci il iyunun 26-da «Bakılı» keşikşi gəmisində Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırıldı. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olundu. Ulu öndər Heydər Əliyevin fərmanına əsasən hər il avqustun 5-i Azərbaycan Respublikası Hərbi Donanma Günü kimi qeyd olunur.

**«Qəbələ».**

# Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümünə həsr edilmiş rəsm-sərgi müsabiqəsi

Gənclər və İdman idarəsinin təşkilatçılığı və Qəbələ Dövlət Rəsm Qalareyasının dəstəyi ilə Qəbələ Mədəniyyət Mərkəzində "Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü"nə həsr edilmiş yeniyetmə və gənclər arasında rəsm-sərgi müsabiqəsi keçirilmişdir. Müsabiqəyə rayonun 20-dək yeniyetmə-gənc rəssamı 100-dək rəsm əsəri ilə qatılmışdır.

Müsabiqəni giriş sözü ilə gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açaraq iştirakçıları salamlamış, Nazirliyin yaranma tarixi barədə məlumat verərək, tədbirin məqsəd və vəzifələri haqqında danışmışdır. Daha sonra mədəniyyət mərkəzinin direktoru Malik Ağayev, rəsm qalereyasının direktoru Cavidan Məmmədov, müsabiqənin münsiflər heyətinin üzvü Müsavər Cavadov çıxış edərək müsabiqəyə təqdim olunmuş əsərlər haqqında məlumat vermiş, gənc rəssamlara uğurlar arzulamışlar.

Rəsm sərgisinə baxış keçirildikdən sonra qaliblərin mükafatlanma mərasimi olmuşdur. Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yerə, 2 nəfər II yerə, 2 nəfər III yerə layiq görülmüş və 6 nəfər fəal iştirakına görə təltif edilmişdir. Rəsm müsabiqəsinin yekunlarına əsasən Qadir Mövlanov I yer, Bilal Məmmədov və Aslan Yahyazadə II yer, Natiq Məmmədov və Lalə Əsgərova III yerə layiq görülmüşlər. Müsabiqədə fəal iştiraklarına görə Aidə Əhmədova, Şəbnəm İbrahimova, Turanə Səbzəliyeva, Murad Alcanov, Pünhan Səmədov və Aişə Hüseynova təltif edilmişlər.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Məhəmmədəli Səfərçinov,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 09 saylı qərarla Corlu kənd sakini **Ağayev Hüsən Hüseynbala oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-366 F nömrəli (kodu 40613005) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşlıca kənd sakini **Əsədov Natiq Ələkbər oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 048 L, 048 C, 048 F, 048 B nömrəli (kodları 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 dekabr 1997-ci il tarixdə 28 nömrəli qərarla Məlikli kənd sakini **Əhmədov Əlihüseyn Məmməd oğlunun və ailə üzvlərinin** adına verilmiş JN: 0012 nömrəli (kodu 40612018) **Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-cil tarixdə 03 saylı qərarla Qəbələ şəhər sakini **Cabbarov Çingiz Yusif oğlunun** adına verilmiş JN: 2731 A nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini **Abdullayev Əfrayim Abdulla oğluna** verilmiş JN-1572 A №-li (kodu 40600048) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 7 oktyabr 2011-ci il tarixdə **Hüseynova Gülmayə Abdulla qızının** adına verilmiş AA 010056 nömrəli və **Sultanova Nuranə Yusif qızının** adına verilmiş AA 010059 nömrəli **Torpaq sahəsinin ölçüsü və planı haqqında** sənədlər, həmçinin 15 oktyabr 2011-ci il tarixdə verilmiş 3108 nömrəli arayışa əsasən **Hüseynova Gülmayə Abdulla qızı ilə Mirzə-zadə Raminə Ənvər qızı** arasında bağlanan və **Soltanova Nuranə Yusif qızı** ilə həmin tarixdə 3109 nömrəli arayışa əsasən **Mirzə-zadə Raminə Ənvər qızı** arasında bağlanan **Torpaq alqı-satqısı müqavilələri** itdiyi üçün etibarsız sayılır.

Şəki Polis Şöbəsi tərəfindən Qəbələ rayonu Kürd kənd sakini **Əzimov Məhəmmədəli Hüseyn oğluna** verilmiş **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 23 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini **Alıyev Muradxan Əli oğluna** verilmiş 1385 №li (kodu 40600048) **Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Rayon mərkəzi xəstəxanasının baş həkimi və kollektivi **MÜSAVƏR MƏMMƏDOVUN** vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir

T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi məktəbin sabiq müəllimi **CAVAN BƏKİROVUN** vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Məsul katib N. R. Atakişiyev.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi: A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1650.
Oxucu məktubları geri qaytarılmır.